# “Biz bu gün Şuşadayıq və bundan sonra Şuşada əbədi yaşayacağıq”

***Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri sürətlə həyata keçirilir, Ermənistanın işğalı zamanı yerlə-bir edilən şəhər və kəndlərimiz, dağıdılan tarixi, mədəni və dini irsimiz bərpa olunur. Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 29-da Şuşa şəhərinə səfəri zamanı bunun bir daha şahidi olduq.***




***Şuşa Azərbaycan şəhəridir. Şuşanın təməlini, - hamımız yaxşı bilirik, - 1752-ci ildə Pənahəli xan qoymuşdur və gələn il biz Şuşanın 270-ci ildönümünü təntənəli şəkildə qeyd edəcəyik. İşğala baxmayaraq, Şuşa Azərbaycan ruhunu saxlaya bildi. Şuşaya gələn hər bir insan bunu görür. Hətta dağılmış vəziyyətdə, hətta işğal dövründə vandalizmə məruz qalmış şəkildə Şuşa öz ruhunu, öz qamətini saxlaya bildi, əyilmədi, sınmadı, bizi gözləyirdi, biz gəlməli idik və biz gəldik. Müzəffər xalq kimi gəldik. Danışıqlar yolu ilə yox, Ermənistan tərəfindən edilə biləcək hansısa güzəşt nəticəsində yox, döyüş meydanında qan tökərək, şəhidlər verərək, fədakarlıq göstərərək gəldik, öz ərazi bütövlüyümüzü bərpa etdik və milli ləyaqətimizi bərpa etdik.***

***İlham ƏLİYEV***
***Azərbaycan Respublikasının Prezidenti***

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva səfər çərçivəsində Əhmədbəyli-Füzuli-Şuşa Zəfər yolunda son tamamlama işlərinin, həmçinin Füzuli Beynəlxalq Hava Limanında aparılan tikintinin gedişi ilə tanış olublar. Tanışlıq zamanı istər Zəfər yolunun salınmasının, istərsə də Füzuli Beynəlxalq Hava Limanının qurulmasının Qarabağ və Şərqi Zəngəzurun dirçəldilməsində mühüm rol oynayacağı bildirilib.

Qeyd edək ki, bu gün Qarabağın bərpasında prioritet istiqamətlərdən biri olan yol infrastrukturunun bərpasına xüsusi önəm verilir. Füzulidən Şuşaya - Zəfər yolunun tikintisinin sürətlə aparılması da bunun bariz ifadəsidir. Xatırladaq ki, bu yolun cari il sentyabr ayının sonu-oktabrın əvvəlində istifadəyə verilməsi nəzərdə tutulur. Zəfər yolu Hacıqabul-Horadiz-Ağbənd-Zəngəzur dəhlizi magistral avtomobil yolunun 149-cu kilometrliyindəki Əhmədbəyli kəndindən başlayır və Füzuli şəhəri, Böyük Tağlar kəndi, Topxana meşəsi, Daşaltı kəndindən keçərək Şuşa şəhərinə çatır.

Artıq burada tamamlama işləri görülür. İki-üç hərəkət zolaqlı 101 kilometrlik yolun 92 kilometrlik hissəsinə asfalt-beton örtüyün salınması başa çatıb.

Füzuli Beynəlxalq Hava Limanının tikintisində də işlər sürətlə aparılır. İnşasına bu il başlanan aeroportun yaxın vaxtlarda istifadəyə verilməsi nəzərdə tutulur.

Dövlətimizin başçısının “Qarabağın hava qapısı” adlandırdığı Füzuli Beynəlxalq Hava Limanının inşasının həyata keçirilməsi, sözün əsl mənasında, misli görünməmiş hadisədir. Bu, düşməndən azad olunmuş torpaqlarımızda yenidənqurma və tikinti işlərinin aparılmasının prioritet istiqamət olduğundan xəbər verir.

Ekspertlərin fikrincə, bu hava limanı işğaldan azad edilmiş ərazilərimizin dirçəldilməsində və inkişafında mühüm rol oynayacaq. Aeroport yükdaşımalar, xüsusən də beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət daşıyacaq. Eyni zamanda, Azərbaycanın bu dilbər guşəsinə-Qarabağ torpağına xarici turistlərin rahat gəlməsini şərtləndirəcək.

İşğaldan azad olunmuş ərazilərimizin sənaye potensialı da nəzərə alınsa, sözügedən hava limanı həm də həmin yerlərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarlarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından da vacibdir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa səfəri də yaddaqalan olub. Belə ki, səfər çərçivəsində şəhərdə “Otel və Konfrans Mərkəzi”nin təməli qoyulub, Üzeyir Hacıbəylinin ev-muzeyində aparılacaq işlər nəzərdən keçirilib. Eyni zamanda, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin, Bülbülün ev-muzeyinin, dahi şair Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin və büstünün, həmçinin “Qarabağ” hotelinin açılışı mərasimləri keçirilib.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya səfər zamanı şəhərdə Xüsusi nümayəndəliyin yerləşəcəyi inzibati binada aparılan bərpa işləri ilə də tanış olublar.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Şuşa səfəri haqqında bəhs edərkən bir neçə məqama toxunmaq istərdim. Əvvəla onu vurğulamaq yerinə düşər ki, Vətən müharibəsində parlaq qələbəmizlə iyirmi səkkiz il yarım işğal altında olan Şuşa ötən il noyabrın 8-i düşməndən təmizlənəndən dərhal sonra şəhərdə geniş miqyaslı bərpa quruculuq işlərinə başlanılıb. Dövlətimizin başçısı avqustun 30-da Şuşada keçirilən Vaqif Poeziya Günlərinin rəsmi açılış mərasimində çıxış edərək bildirib: “Şuşanın bərpası yanvarın 14-dən başlanmışdır və qısa müddət ərzində böyük işlər görüldü. İlk növbədə, yol çəkildi. İndi gəldiyiniz Zəfər yolu nə vəziyyətdə idi biz onu yanvarın 14-də gördük. Biz Füzulidən təqribən iki saat yarıma-üç saata gəldik. Şaxtalı, qarlı hava idi, yol da yox idi, bir cığır idi, üstü buz, palçıq. İndi isə artıq asfalt yol tikilib və bu, elə Zəfər yoludur. Magistral yol da çəkilir. Füzuli şəhərindən tunellər daxil olmaqla, magistral yol tikilir, daha qısa yol olacaq. Şuşanın elektrik təsərrüfatı bərpa edildi, buraya yüksəkgərginlikli xətlər Füzulidən çəkildi, yarımstansiya tikildi. Yəni, Şuşanı elektriklə təmin etmək başlıca vəzifələrdən biri idi. Düşmən Şuşanı tərk edərkən Şuşanın su xətlərini partlatmışdı. Şuşaya suyun verilməsini biz bərpa etdik. İndi iki mənbədən Şuşaya su gəlir”.

Ölkə rəhbəri çıxışında daha sonra bu il yanvarın 14-dən Şuşanın tarixi abidələrinin bərpasına start verildiyini, Vaqifin məqbərəsinin artıq bərpa edildiyini, üç məsciddə təmir-bərpa işlərinin getdiyini, Natəvan bulağının bərpa olunduğunu, “Xarıbülbül” otelinin istifadəyə verildiyini vurğulayıb.

Yeri gəlmişkən, xatırladaq ki, dövlətimizin başçısı bu il yanvarın 14-də Şuşa şəhərinə səfər zamanı erməni vandalizminə məruz qalan XVIII əsrdə yaşamış Azərbaycan şairi və ictimai-siyasi xadim, Qarabağ xanının vəziri olmuş Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin qarşısında çıxış edərkən bildirdi ki, ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə inşa edilmiş Molla Pənah Vaqifin məqbərəsinin düz 39 il bundan əvvəl – 1982-ci il yanvarın 14-də açılışı gününü yaxşı xatırlayır. Bununla bağlı tarixi videokadrlar da var: “Çox şaxtalı, qarlı bir hava idi. Möhkəm qar yağırdı. Amma buna baxmayaraq, bu tədbirə yığışmış insanlar, Azərbaycan ziyalıları heç o soyuğu hiss etmirdilər. Çünki Qarabağ xanının vəziri olan Molla Pənah Vaqifin möhtəşəm məqbərəsi açılırdı. Bu təşəbbüsü ulu öndər Heydər Əliyev irəli sürmüşdü, onun rəhbərliyi ilə inşaat işləri aparılmışdı və gözəl, əzəmətli məqbərə ucaldılmışdı”.

Bəli, ümummilli lider Azərbaycana rəhbərliyinin birinci dönəmində milli ruhun yüksək səviyyədə reallaşması üçün çox böyük işlər görmüşdü, eyni zamanda, doğma Qarabağa, Azərbaycanın incisi sayılan Şuşaya sevgisinin ifadəsi olaraq, mühüm layihələr gerçəkləşdirmişdi...

Təəssüf ki, dövlətimizin başçısının vurğuladığı kimi, o zaman heç kimin ağlına gələ bilməzdi ki, bir neçə ildən sonra burada separatizm baş qaldıracaq, Ermənistan Azərbaycana qarşı təcavüz edəcək, bu tarixi şəhərimiz işğal altında qalacaq, tarixi abidələrimiz, məscidlərimiz, Vaqifin məqbərəsi dağıdılacaq. Azərbaycan xalqının çoxəsrlik irsi Qarabağ diyarından silinməyə məruz qalacaq…

Prezident İlham Əliyev bu il yanvarın 14-də Şuşa ilə tanışlığı zamanı onun əvvəlki şəhərdən əsər-əlamət qalmadığını xatırlatdı. Ölkə rəhbəri maddi-mədəni abidələrimizin erməni vandalizminin qurbanına çevrildiyini, düşmənin bu əzəli yurd yerimizdə oğurluq və talançılığa yol verdiyini bildirdi. Saatlı, Aşağı Gövhərağa, Yuxarı Gövhərağa məscidlərinin, Şuşa Realnı Məktəbinin, Xurşidbanu Natəvanın, Üzeyir Hacıbəylinin, Bülbülün büstlərinin, Bülbülün ev-muzeyinin, Vaqifin məqbərəsinin, inzibati və yaşayış binalarının barbarlığa məruz qalmasının erməni faşizminin rəzil aqibətinin göstəricisi olduğunu təsdiqlədi.

Lakin Qarabağın incisinin, Azərbaycanın mədəniyyət paytaxtının tezliklə yenidən tikilib-qurulacağı, abadlaşdırılacağı, dünyanın ən möhtəşəm şəhərlərindən birinə çevriləcəyi, Prezident İlham Əliyevin noyabrın 8-də xalqımızı Şuşanın işğaldan azad edilməsi münasibətilə təbrik edərkən dediyi “Əziz Şuşa, biz səni dirçəldəcəyik!” sözlərinin gerçəkləşəcəyi heç kimdə şübhə doğurmadı. Dövlətimizin başçısının qətiyyəti, prinsipiallığı, verdiyi vədə hər zaman sadiq olmağı bu əminliyi tez bir zamanda doğrultdu.

Təbii ki, işğaldan azad edilən Şuşanı dirçəltmək üçün, ilk növbədə, yollar çəkilməli və paralel olaraq digər zəruri infrastruktur yaradılmalıdır. Hazırda bu məqsədlə Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolunda son tamamlama işləri görülür. Yolun qrafikdə nəzərdə tutulan vaxtdan tez istifadəyə verilməsi gözlənilir.

Ölkə rəhbəri Şuşaya həmin səfəri zamanı şəhəri mədəniyyət paytaxtımız elan etdi, şəhərin bərpası və tarixi simasının özünə qaytarılması istiqamətində işlərə start verildiyini bildirdi. Bununla da Böyük qayıdışın başlandığını, düşmənin qısa müddət ərzində, cəmi 44 gündə ərazilərimizdən qovulduğu kimi, tarixi dədə-baba torpağımız olan Qarabağın da qısa müddətdə bərpa ediləcəyinə əminliyini vurğuladı.

İndi aradan ötən bu qısa müddətdə Şuşada genişmiqyaslı bərpa-quruculuq layihələri reallaşdırılıb. 1992-ci ildə şəhərin işğalı zamanı erməni vandalizminə məruz qalaraq dağıdılan dahi şair Molla Pənah Vaqifin büstünün açılışı olub. Xatırladaq ki, Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan büst Vaqifin Şuşadakı evinin yaxınlığında quraşdırılıb. Bundan başqa şairin muzey-məqbərə kompleksi də bərpa edilib.

Qeyd edək ki, 1982-ci il yanvarın 14-də xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü və iştirakı ilə Azərbaycanın qədim mədəniyyət mərkəzi Şuşa şəhərində Molla Pənah Vaqifin məzarı üzərində ucaldılan əzəmətli məqbərənin açılışı olmuşdu. Məhz bu səfər çərçivəsində ümummilli lider Heydər Əliyev Vaqif Poeziya Günlərinin keçirilməsi ilə bağlı göstəriş verdi və həmin ilin 29 iyul – 3 avqust tarixlərində Şuşada Vaqif Poeziya Günləri keçirildi. Müzəffər Azərbaycan Ordusunun şanlı Zəfərindən sonra, 39 il əvvəl məqbərənin açıldığı gündə - yanvarın 14-də Şuşa şəhərinə səfəri zamanı məqbərəni ziyarət edən Prezident İlham Əliyevin tapşırığına əsasən, burada təmir-bərpa və yenidənqurma işlərinə start verildi. Heydər Əliyev Fondu tərəfindən aradan ötən müddətdə məqbərədə təmir-bərpa və yenidənqurma işləri aparıldı.

Yeri gəlmişkən, məqbərənin hər detalında belə tarixi görkəm qorunub saxlanılıb. Abidə kompleksinin bütün infrastrukturu yenidən qurulub, yağış suları üçün drenaj xətləri və elektrik xətləri çəkilib quraşdırılıb. Landşaftda istinad divarları və meydança tarixi görkəmi çərçivəsində qranitlə üzlənib. Eyni zamanda, ətrafda o dövrün şəkillərində əks olunduğu kimi, müxtəlif növ qızılgül kolları əkilib.

Şuşada 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq fəaliyyətini dayandıran Bülbülün ev-muzeyi də işğal zamanı yararsız hala salınmış, yükdaşıyıcı divarlarında çatlar əmələ gəlmiş və divarlar çökmüşdü. Bərpa zamanı isə bütün bu zədələr aradan qaldırılıb. Dam örtüyü, taxta döşəmələr, qapı və pəncərələr çürüdüyündən və istismara yararsız hala düşdüyündən, binanın tarixi görkəmini qorumaq şərtilə yenilənib.

Üzeyir Hacıbəylinin heykəli isə dahi bəstəkarın 1985-ci ildə 100 illik yubileyi münasibətilə ucaldılmışdı. Heykəltaraş Əhməd Salikov tərəfindən hazırlanan bu abidə 1992-ci ildə Birinci Qarabağ müharibəsi zamanı erməni vandalizminə məruz qalaraq tamamilə məhv edilmişdi.

Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq bəstəkarın yeni heykəli də artıq hazırlanıb. Heykəlin modeli qalmadığından yeni abidə o dövrün mətbuatında dərc olunan və arxivdə saxlanılan fotolar əsasında yaradılıb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan heykəl Şuşa şəhərində öz əvvəlki yerində ucaldılıb.

Azərbaycan Prezidenti İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya səfər çərçivəsində Şuşa şəhərinin baş planının təqdim olunması da xüsusi diqqət çəkib. Dövlətimizin başçısına və birinci xanıma Şuşanın baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunmasının əsas götürüldüyü, mədəniyyət paytaxtımızda reallaşdırılan bütün layihələrin tarixlə müasirliyin vəhdəti üzərində qurulacağı və tezliklə keçmişdə olduğu kimi, Şuşa dünyanın ən gözəl şəhərlərindən birinə çevriləcəyi bildirilib.

Təqdim olunan baş planda Şuşanın orta, yüksək və qarışıq sıxlıqlı olan yaşayış binalarının inşa edilməsi, şəhər mərkəzinin, yeni tikiləcək və qorunub saxlanılacaq tarixi binalar və abidələrin yerləri də öz əksini tapıb.

Şəhərdə uzunluğu 36,2 kilometr olan mövcud yollarla yanaşı, həm də 17,6 kilometr yeni yolun inşası da nəzərdə tutulur. Həmçinin şəhərin baş planında ictimai dayanacaqların da yerləşmə yerləri müəyyən olunub. Bu dayanacaqlar elə qoyulacaq ki, şəhərin küçələrinə giriş-çıxışa maneə olmasın.

Baş plan hazırlanarkən, şəhərin relyefinə uyğun olaraq yaşıllıqları və landşaftı qoruyub saxlamaq, onu inkişaf etdirmək məqsədilə yaşıl dəhlizlərin inşası da nəzərdə tutulur.

Şuşada ümumi sahəsi 46.765 kvadratmetr olacaq yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Məhəllələr üzrə əhali sayı 2020 nəfər nəzərdə tutulur. Beləliklə, yaşayış massivində 25 binanın olacağı planlaşdırılır. Avqustun 29-da təməli qoyulan 1-ci məhəllədə 3, 4 və 5 mərtəbəli binalar da Şuşaya xas memarlıq üslubu ilə tikiləcək.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***